# TARİXLƏ ƏFSANƏ ARASINDA HƏŞİŞİLİK (HƏŞŞAŞİLİK)

***i.f.d., dos. Aqil Şirinov,***
*Azərbaycan İlahiyyat İnstitutunun rektoru*
agilshirinov@ait.edu.az

## XÜLASƏ

Fatimi xəlifəsi Müstənsir Billahın (1036-1094) vəfatından sonra ismailiyyə məzhəbi iki qola bölündü. Müstənsir Billahın kiçik oğlu Müstəli ordu komandiri olan qaynı Əfzəl ibn Bədr əl-Cəmalinin dəstəyi ilə xəlifə seçildi. Yeni xəlifənin dövründə Müstənsirin böyük oğlu Nizarın imamətinin tərəfdarları təqibə məruz qaldılar. Müstəliliyin (müstəliyyə) əksinə, Nizarın imamətini qəbul edən nizarilik (nizariyyə) Həsən Səbbahın Ələmutda qurduğu İsmaili dövlətinin (1090-1256) rəsmi ideologiyasına çevrildi. Həsən Səbbah nizariliyi müsəlman Şərqində yaymağa çalışır və bu yolda ona mane olan qüvvələrə qarşı sui-qəsd də daxil olmaqla, müxtəlif ideoloji və hərbi vasitələrlə mübarizə aparırdı.

1090-cı ildə Ələmutun ələ keçirilməsi ilə başlayan bu fəaliyyət, daha sonra Raşidüddin Sinanın (1126-1193) səyləri nəticəsində Suriya ərazisinə doğru genişləndi və beləcə, nizarilər müsəlman dünyasında ciddi hərbi və ideoloji qüvvəyə çevrildilər. Müxalifləri, xüsusən də Suriya bölgəsində fəaliyyət göstərən səlibçilər tərəfindən narkotik maddə olan həşişdən istifadə etdikləri üçün “həşişi” və “həşşaşi” adlandırılan nizarilər, bir tərəfdən, öz imamlarına itaətin vacibliyinə əsaslanan ideoloji təbliğatlarını yürüdür, digər tərəfdən, rəqiblərinə qarşı o dövrə qədər görünməyən sui-qəsd taktikasından istifadə edərək qorxulan bir cərəyan halına gəldilər. Səlcuqilər onlarla hərbi və ideoloji mübarizəni əsas hədəflərindən birinə çevirmişdilər. Nəhayət, monqolların Ələmutu ələ keçirib nizari imamını öldürmələri, daha sonra isə məmlüklərin Suriya nizarilərini nəzarət altına almaları ilə birlikdə həşişilik müsəlman dünyasında ciddi bir qüvvə olmaqdan çıxmışdı.

Həşişilərin fəaliyyəti haqqında Orta əsr müsəlman və avropalı müəlliflər tərəfindən yazılmış tarix əsərlərində və səyahətnamələrdə xeyli məlumat

mövcuddur. Bu əsərlərin bir qismində tarixi reallıqlar öz əksini tapsa da, Marko Polo başda olmaqla, bəzi müəlliflər həşişilər haqqında verdikləri məlumatlarda əfsanələrə əsaslanmışlar. Məqalənin məqsədi mənbələrə əsaslanaraq, bu məlumatlar arasında doğru olanlarla əfsanəvi olanların müəyyənləşdirilməsi və beləcə, tarixi həqiqətlərin üzə çıxarılmasıdır.

***Açar sözlər:*** *Həşişi, Həsən Səbbah, Ələmut, nizarilər, Raşidüddin Sinan, səlcuqilər.*

**Giriş**

Həşişilik (həşşaşilik) cərəyanı Orta əsrlərdən günümüzədək istər Qərb, istərsə də Şərqdə tarixçilərdən ilahiyyatçılara, terrorizm üzrə mütəxəssislərdən ədib və sənətşünaslara qədər bir çox sahə mütəxəssislərinin nəzərini cəlb etmiş, mövzu ilə əlaqəli xeyli əsər qələmə alınmışdır. Bu əsərlər arasında həşişiliyin həqiqi mahiyyətini tədqiq edən akademik çalışmalarla yanaşı, bəzi Orta əsr müəlliflərinin mübaliğəli və əfsanəvi məlumatlarına əsaslanan çalışmalara da rast gəlmək mümkündür.

Müasir dövrdə həşişiliklə əlaqəli yazılmış çox sayda elmi tədqiqat əsəri arasında amerikalı şərqşünas və dünya tarixçisi Marşal Hotqsonun (Marshall G.S. Hodgson) (1922-1968) "Həşişi ordeni: ilkin nizari ismaililərinin İslam dünyasına qarşı mübarizəsi" (The Order of Assassins: The Struggle of the Early Nizari Isma'ilis Against the Islamic World) adlı nəşr olunmuş dissertasiya işini (Hague: Mouton & Co. Publishers, 1955) xüsusi qeyd etmək lazımdır. Hodqson bu əsərində həşişilərin mənsub olduqları nizari ismaililiyinin tarixini və fikirlərini tədqiq etmiş, xüsusilə də Fatimi xilafətində ismaililik içərisindəki nizari-müstəli bölünməsi, Həsən Səbbahın səlcuqilər dövründəki fəaliyyəti, Raşidüddin Sinanın liderliyi ilə həşişilərin Suriyadakı fəaliyyəti haqqında mənbələrə əsaslanaraq dolğun məlumat verməyi bacarmışdır.

Britaniyalı şərqşünas və tarixçi alim Bernard Luis (Bernard Lewis) "Həşişilər: İslamda radikal bir sekta" (The Assassins: A Radical Sect in Islam) adlı əsərində də Şərq və Qərb mənbələrinə əsaslanaraq, həşişiliyin yaranma və inkişaf tarixi, eləcə də fikirləri haqqında ətraflı məlumat vermişdir.

İranəsilli Britaniya tədqiqatçısı Fərhad Dəftərinin (Farhad Daftary) "Həşişi əfsanələri: ismaili mifləri" (The Assassin Legends: Myths of the Isma'ilis) adlı əsəri həşişiliyin tarixi, xüsusən bu cərəyanın aid olduğu ismailiyyə məzhəbinin nizariyyə qolu haqqında təfərrüatlı məlumat sərgiləmiş, həşişilərin tarixinə dair, həmçinin Orta əsr Qərb səyyahları və tarixçiləri tərəfindən verilmiş əfsanəvi xarakterli məlumatların Ələmut və Suriya nizarilərinin həqiqi simasını əks etdirmədiyini vurğulamışdır. Qeyd etmək lazımdır ki, ümumi İslam tarixi mənbələri ilə yanaşı, nadir ismaili mənbələrindən istifadə etməsi Fərhad Dəftərinin həm sözügedən əsərinin, həmdə ismaililiklə əlaqəli digər tədqiqatlarının qiymətini daha da artırır.

Həşişiliyin tarixi və fikirləri haqqında yuxarıda adlarını qeyd etdiyimiz əsərlər qədər dolğun təhlillərə əsaslanmasa da, ərəbcə, türkcə, rusca, fransızca və farsca yazılmış çox sayda kitab və məqalələr mövcuddur. Mövzu ilə əlaqəli azərbaycanca yazılmış müstəqil bir tədqiqat əsərinə rast gəlmədik.

Məqaləmizin əsas məqsədi həşişilik haqqında mənbələrdə verilmiş məlumatların əfsanəvi xarakterli olanları ilə həqiqi tarixi reallığı əks etdirənlərinin müəyyənləşdirilməsidir.

## 1. "Həşişi" termini haqqında qeydlər

"Həşişi" kəlməsi hərfən "həşişdən istifadə edən" mənasını verir. Terminoloji mənada isə şiəliyin qollarından biri olan ismailiyyə məzhəbinin nizarilik firqəsinə mənsub olub, öz müxaliflərini sui-qəsdlə öldürməyi bir metod kimi seçmiş XII-XIII əsrlərdə Suriyada fəaliyyət göstərən qruplara verilmiş addır. Avropalı səyyahların və qismən müsəlman tarixçilərin verdiyi məlumatlara əsasən, sözügedən qrupun lideri "fədai" və ya "fədavi" adlandırdığı tərəfdarlarını öz müxaliflərini aradan qaldırmaq üçün göndərdikdə, onlara ölüm qorxusuna qalib gələ bilmək üçün narkotk maddə (həşiş) verirdi. Buna görə də müxalifləri onlara "həşişi" və ya "həşşaşi" deyirdilər.

"Həşişi" termini ilk dövrlərdə, ancaq Raşidüddin Sinanın başçılıq etdiyi Suriya nizariləri haqqında istifadə olunurdu. Hodqson və Fərhad Dəftərinin də qeyd etdiyi kimi, ilk dəfə bu termini Suriyaya göndərdiyi nizariləri tənqid edən Fatimi xəlifəsi Amir Biəhkamillah (1096-1130) 1123-cü ildə xəlifə Müstənsir Billahdan sonra imamətin nizarilərin iddia etdiyi kimi, Müstənsirin böyük oğlu Nizarın deyil, kiçik oğlu Müstəlinin haqqı olduğunu irəli sürdüyü

məktubunda istifadə etmişdir (Amir 1938, 27; Hodgson 1955, 136; Daftary 1994, 29). Bügünkü İran ərazisində Həsən Səbbah və daha sonra onun ardıcıllarının rəhbərliyi ilə fəaliyyət göstərən nizarilər haqqında isə cərəyanın müxalifləri daha çox "mülhid" (tanrıtanımaz) və "dinin zahiri hökmlərinin deyil, batini məzmununun önəmli olduğunu irəli sürənlər" mənasında "batini" terminindən itifadə edirdilər. Daha sonrakı dövrlərdə yaşamış müəlliflər, xüsusən də müasir tədqiqatçılar Raşidüddin Sinanın Ələmut hakimi II Həsən tərəfindən Suriyada nizariliyi təbliğ üçün göndərildiyini nəzərə alaraq, bu termini XI-XIII əsrlərdə həm İran, həm də Suriyada fəaliyyət göstərən nizarilər haqqında istifadə etmişlər.

Qeyd etmək lazımdır ki, başda Marko Polo olmaqla, avropalı səyyahların həşişilik haqqında verdiyi mübaliğəli və əfsanəvi məlumatların təsiri ilə "həşişi" kəlməsi Avropa dillərində də "suiqəsdçi, qatil", hətta Avropa ədəbiyyatında "fədakar, sevdiyinin əmrlərini itaətkarcasına yerinə yetirən" mənasında istifadə olunmuşdur (Daftary 2008, 150; Öz 1997, XVI/419). Müasir ingilis dilində "məşhur və ya önəmli bir şəxsi siyasi məqsədlə və ya pul qarşılığında öldürən" mənasında işlənən "assassin" kəlməsi də məhz "həşişi" sözündən götürülmüşdür.

## 2. Həşişiliyin tarixinə dair qeydlər

### a) Ələmut nizariliyi: Həsən Səbbahın fəaliyyəti

Həşişiliyin yaranmasında Həsən Səbbah adı ilə tanınan Həsənəli ibn Məhəmməd ibn Cəfər ibn Hüseyn ibn Məhəmməd ibn əs-Səbbah əl-Himyərinin xüsusi rolu olmuşdur. Həsən Səbbah (447/1055-518/1124) Rey şəhərində dünyaya gəlmişdir. Əslən Yəmənin Himyər krallarının nəslindən olduğu güman olunur. Özü əvvəl imamiyyə məzhəbinə mənsub olsa da, Əbünnəcm əs-Sərrac, bəzi mənbələrə görə isə Əmirə Zərrab adlı bir fatimi dəvətçisi ilə qarşılaşdıqdan sonra ismailiyyə məzhəbinə keçmişdir. Daha sonra İraq ismaililərinin liderlərindən biri olan Əbdülməlik Əttaşla tanış olmuş və onun təkidi ilə Qahirəyə getmişdir. Qahirədə ona "dai" (dəvətçi, ismailiyyə məzhəbinin təbliğatçısı) rütbəsi verilmişdir. Bəzi ismaili mənbələrində 18 ay Qahirədə qalan Səbbahın burada məşhur ismaili filosof və "dai əd-düat" (hərfən: dailərin daisi, baş dəvətçi) Hibətullah Şirazidən (390/1000– 470/1078) dərs aldığı qeyd edilir (Tamir 1991, IV/11-12).

Həsən Səbbah Qahirədə qaldığı müddətdə ismailiyyə məzhəbi daxilində bölünməyə səbəb olan tarixi hadisələrə şahidlik etmişdir. Belə ki, Fatimi xəlifəsi Müstənsir Billah özündən sonra böyük oğlu Nizarı (v. 488/1095) xəlifə və imam təyin etmişdir. Lakin xəlifənin kiçik oğlu "Müstəli" ləqəbli Əhməd (467/1074 - 495/1101) qaynı və ordu komandiri Əfzəl ibn Bədr əl-Cəmalinin (v. 515/1121 - 458/1066) dəstəyi ilə xəlifə seçilmişdir. İsgəndəriy-yəyə qaçan Nizar isə həbs edilmiş və həbsxanada vəfat etmişdir (İbn Kəsir 1408/1988, XII/182).

Nizarı dəstəkləyənlər arasında Həsən Səbbah da var idi. O da Əfzəl tərəfindən həbsə atılmış, lakin həbsdən qaçıb vətəninə geri dönməyi bacarmışdır. Qayıtdıqdan sonra ilk işi nizari-ismaili dövlətini yaratmaq üçün Qəzvinin şimal-qərbində Elburz dağlarında yerləşən Ələmut qalasını ələ keçirmək olmuşdur. Düşmənlərin hücumundan qorunmaq üçün çox əlverişli və keçilməz bir yerdə yerləşən bu qala onun qərargahına çevrilir. Həsən Səbbah daha sonra Şahduz, Kirdkuh, Meymunduz və digər bir neçə qalanı da ələ keçirib Səlcuqilərin rəqibinə çevrilir. Bəzi mənbələrə görə, o, Misirdən Nizarın oğlu Əli əl-Hadini gətirərək, Ləmsər qalasında məskunlaşmış və ətrafındakılarla birlikdə ona dövrün İmamı kimi beyət etmişdir. (Tamir 1991, IV/12). Beləcə, "əd-də`və əl-cədidə (yeni dəvət)" adlandırılan doktrinaya əsaslanan Nizari-İsmaili dövlətinin və fədai təşkilatının əsasını qoymuşdur. O, bir tərəfdən, nizariliyi yaymaq üçün dailər, digər tərəfdən, səlcuqilərlə mübarizə aparmaqdan ötrü fədailər hazırlayırdı. Həsən Səbbahın təsis etdiyi bu təşkilat, təqribən, 150 il boyunca, başda səlcuqilər olmaqla, ətrafdakı dövlətlər üçün ideoloji və hərbi müstəvidə təhdidə çevrildi.

Həsən Səbbah kəskin zəkası ilə ətrafındakı insanları öz amalına inandırmağı bacaran bir şəxsiyyət idi. O, sərkərdəliyi ilə yanaşı, elmi-dini diskussiya aparma qabiliyyətinə də malik idi. Ələmutun monqollar tərəfindən işğalından sonra, qalada olan ismaili mənbələrin, demək olar ki, hamısı yandırıldığı üçün Həsən Səbbahın yazdığı əsərlər günümüzə qədər gəlib-çatmayıb. Əbülfəth Şəhristani özünün dinlər, məzhəblər və fəlsəfi məktəblərə dair yazdığı ensiklopedik əsəri olan "Əl-Miləl vən-nihəl"də Həsən Səbbahın farsca qələmə aldığı "Füsuli-ərbəə" (4 fəsil) adlı əsərinin bir hissəsini ərəb dilinə tərcümə edərək qorumağı bacarmışdır. O, bu əsərində insan ağlının təkbaşına ilahi həqiqətləri qavraya bilməyəcəyini, bunun üçün Allah tərəfindən dəstəklənən

məsum imama ehtiyac olduğunu isbat etməyə çalışmışdır (bax: Şəhristani 1421/2001, I/232-233).

Həsən Səbbahın fəaliyyəti nəticəsində nizarilik xalq kütlələri arasında yayılır. Səlcuqilər dövründə onların ilk dəfə kütləvi şəkildə üzə çıxması Savə şəhərində baş verir. Belə ki, Məlik Şahın dövründə 18 nəfər nizari Savə məscidində cəm halında bayram namazı qılmış, bundan xəbəri olan səlcuqi məmurları onları bir müddət həbsdə saxladıqdan sonra azad etmişlər. Bundan sonra nizarilər İsfahanda yaşayan savəli bir müəzzini öz fikirlərinə cəlb etmək istəmiş, qəbul etmədikdə onu öldürmüşlər. Xəbər vəzir Nizamülmülkə çatdıqda o, cinayətkarın tapılıb cəzalandırılmasını əmr etmişdir. Nəhayət, müəzzini öldürənin nizariliyi qəbul etmiş Tahir adlı bir dülgər olduğu məlum olmuş, dülgər öldürülmüşdür. Bundan sonra nizarilər Məlikşahın məşhur vəziri Nizamülmülkə qarşı sui-qəsd törətmiş, yaralanan vəzir bir neçə gün sonra vəfat etmişdir. Mənbələrdə nizarilərin "O, dülgəri öldürdü, biz də onu" dediyi nəql olunur. Nizamülmülk nizarilərin öldürdüyü ilk məşhur şəxs idi (İbn əl-Cövzi 1412/1992, XVII/63; İbn əl-Əsir 1386/1966, X/313).

Nizarilərlə (batinilər) mübarizə səlcuqi sultanı Məlikşahın siyasətinin əsas istiqamətlərindən biri idi. O, dəfələrlə Ələmutun alınması üçün qoşun göndərmiş, lakin müəyyən səbəblərdən öz məqsədinə nail ola bilməmişdir. Məlikşahdan sonra hakimiyyətə gələn Bərkyaruq dövründə nizarilər hakimiyyətdaxili mübarizədən istifadə edərək daha da güclənmişlər. Sultanın əyanları onların sui-qəsdlərindən qorxaraq zireh və silahları olmadan heç bir yerə gedə bilmirdilər (Lewis 1967, 51-52). Bərkyaruqdan sonra taxta keçən Məhəmməd Tapar (474/1082-511/1118) da nizarilərə qarşı sərt idi. Onun dövründə xeyli sayda nizari qətlə yetirilmişdi. O, nizarilərin İsfahan yaxınlığında yerləşən qalalarından olan Şahdizi ələ keçirib, qalanın hakimi Əhməd ibn Əbdülməlik Əttaşı və övladını qətlə yetirir (İbn əl-Əsir 1386/1966, X/430-431; Müstövhi 1362, 444-445; Nüveyri XXVI/361). Əhməd İsfahan bölgəsində nizariliyin ən mühüm təbliğatçılarından biri olmuşdur. O, İsfahanda nizariliyin təbliği üçün bir dəvətxana qurmuş, təqribən, otuz min insanın nizari ismaililiyini qəbul etməsinə nail olmuşdur (Daftary 2014, 501). Bu baxımdan, onun öldürülməsi səlcuqilər üçün böyük qələbə idi. Sultan daha sonra Ələmutu da mühasirəyə almış, lakin qış səbəbindən mühasirədən əl çəkmişdir. Taparın əmirləri də batinilərə məxsus bir neçə qalanı ələ keçirməyə müvəffəq olmuşlar (bax:

Özaydın, 2005, XXX/280). Nizarilər də bunun müqabilində onun əyanlarına qarşı sui-qəsd təşkil edirdilər. Məsələn, 1126-cı ildə (hicri 520) onlar Məhəmməd Taparın və oğlu Sultan Mahmudun (498/1105-525/1131) məşhur əmiri Ağsunqur Porsuqini (v. 520/1126) öldürdülər. Mosul şəhərində Cümə namazını qıldıqdan sonra məsciddən çıxan Porsuqi 10-dan çox batininin hücumuna məruz qaldı, onlardan üçünü öldürməyi bacarsa da, özü də öldürüldü (İbn əl-Əsir 1382/1963, 31; Zəhəbi. 1413/1993, XIX/511).

Mosul şəhəri və Suriyanın həmin dövrdə həşişilərin sıx şəkildə fəaliyyət göstərdikləri bölgələrdən biri olduğunu irəli sürmək mümkündür. Belə ki, Əmir Porsuqidən əvvəl Mosul əmiri olmuş Altuntəgin oğlu Mövdud (v. 507/1113) da məhz həşişilər tərəfindən qətlə yetirilmişdi. Ondan əvvəl isə Atabəy Cənahüddövlə Hüseyn Himsdə batinilər tərəfindən qətlə yetirilmişdir.

Belə görünür ki, həşişi fədailəri hökmdarlar və əmirlər arasındakı nüfuz çəkişmələrində sui-qəsdçi kimi də istifadə olunmuşlar. Məsələn, tarix mənbələrində Mosul əmiri Mövdudun öldürülməsində Məlik Rizvan ibn Tutuş (v. 507/1113) və Atabəy Tuğteginin (v. 522/1128) rolu olduğuna dair iddialardan bəhs olunur (Demirkent 2004, XXIX/429).

Səlcuqi sultanı Səncər də əvvəllər batinilərə qarşı sərt siyasətin tərəfdarı idi. Vəziri Fəxrülmülk batinilər tərəfindən öldürüldükdən sonra, Sultan Səncər 1126-cı ildə onlara qarşı hücuma keçmiş və xeyli batinini qətlə yetirmişdir. Bundan bir il sonra batinilər onun yeni vəziri Müinəddin Kaşini də öldürdülər. Bu hadisədən sonra Səncər Ələmuta hücuma keçdi və bu hücumda 10 mindən çox batini qətlə yetirildi. Daha sonra o da batinilərdən çəkinərək sülhə üstünlük verdi (Özaydın 2009, XXXVI/510).

Həsən Səbbah ölənə qədər (518/1124) istər intellektuallara və xalqa xitab edən əsərlər yazmaqla, istərsə də nizariliyin yayılmasının önündə əngəl olan rəqiblərinə qarşı sui-qəsd təşkil etməklə məşğul oldu. Onun başçılıq etdiyi bu hərəkat, səlcuqilər başda olmaqla, bölgədə fəaliyyət göstərən dövlətləri qorxuya salır, hətta bəzən fədailərdən qorunmaq üçün dövlət adamları yatarkən belə, zirehlərini çıxarmırdılar. Batinilər saraylara belə öz adamlarını yerləşdirməyi bacarırdılar.

Həsən Səbbahdan sonra Ələmutu Kiya Bozorgümmid (1124-1138), Bozorgümmidin oğlu Məhəmməd (1138-1162), daha sonra isə nizari imamları Həsən Əla Zikrihisssalam (1162-1166), Nurəddin Məhəmməd (1166-1210),

Cəlaləddin Həsən (1210-1221), Əlaəddin Məhəmməd (1221-1255) və Rüknəddin Xürşah (1255-1256) idarə etdilər. Həsən Səbbah və ondan sonrakı iki Ələmut hakimi dövləti nizari imamının təmsilçisi (dai, höccət) kimi idarə edirdilər. Həsən əla Zikrihissalamla birlikdə isə nizari imamları dövləti birbaşa özləri idarə etməyə başladı (Daftari 2017, 460).

Həsən əla Zikrihissalam nizarilik içərisində bir çox dəyişikliklər etdi. Bu dəyişikliklər onun 1164-cü ildə elan etdiyi "qiyamətül-qiyamat" (qiyamətlərin qiyamətləri) doktrinası ilə bağlı idi. Onun iddiasına görə, "qiyamət" deyilən yeni bir dövr başlamış və buna görə də İslam şəriətinin əmr və qadağaları aradan qalxmışdır. O, qibləni dəyişmiş, öz tərəfdarlarına namaz, oruc və sair zahiri ibadətlərin ləğv edildiyini, içki içmənin sərbəst olduğunu bildirmişdir. Həsənin bu hərəkətləri nizarilər arasında böyük çaxnaşmaya səbəb olmuş, nəhayət o öz qaynı tərəfindən öldürülmüşdür. Qeyd edək ki, Mirzə Fətəli Axundov da "Kəmalüddövlə məktubları"-nda Həsənin fəaliyyətlərindən təriflə bəhs edir (Axundov 2005, II/85-88). Həsənin oğlu Nurəddin Məhəmməd də atasının fikirlərini davam etdirmiş, imamın ruhani həqiqətdə Allahı görməsi ilə qiyamətin qopduğunu və beləcə şəriətin bir çox qaydasının ləğv olunduğunu müdafiə etmişdir (Mustafa Öz, Mustafa Muhammed Eş-Şek'a 2001, XXIII/131). Cəlaləddin Həsənin dövründə yenidən şəriətin hökmləri bərpa edilsə də, Həsən əla Zikrihissalamın şəriətin zahirinin mühüm olmadığına dair nöqteyi-nəzəri dövrümüzə qədər nizarilər arasında yaşamaqdadır. Belə ki, əksər müsəlmanların qibləyə yönələrək qıldığı günlük 5 namaz, Ramazan ayı boyunca tutulan oruc və sair zahiri ibadətlər nizarilikdə mövcud deyildir.

Ələmut mərkəzli nizarilik monqol işğalına qədər ayaqda qalmağı bacardı. 1256-cı ildə Hülakü xan Ələmutu ələ keçirib qalanın son hakimi Rüknəddin Xürşahı qətlə yetirdikdən və daha sonra digər nizari qalalarını aldıqdan sonra, artıq dövlətləri qalmayan nizarilər daha çox gizli fəaliyyət göstərməyə üstünlük vermiş, silahlı mübarizəyə davam etməmiş və müsəlman cəmiyyətində azlıq bir qrup şəklində mövcudluqlarını davam etdirmişlər.

### b) Şam nizariliyi: Sinan Raşidüddinin fəaliyyəti

Həsən Səbbahın fədai təşkilatı həm onun dövründə, həm də ondan sonra, bir tərəfdən, bugünkü İran ərazisində fəaliyyət göstərir, digər tərəfdən, İslam

dünyasının digər bölgələrinə də yayılmağa çalışırdı. İsmaililiyin formalaşdığı ilkin dövrlərdən etibarən, bu məzhəbin mərkəzlərindən biri olan Şam (Suriya, Livan, İordaniya, Fələstin) bölgəsi də fədai təşkilatının fəal şəkildə fəaliyyət göstərdiyi məkanlardan idi. Şamdakı ismaililər də Həsən Səbbah kimi xilafət mübarizəsində Müstəlini deyil, Nizarı dəstəkləmiş və beləcə, Fatimi xilafəti ilə əlaqələrini kəsmişdi. Həsən Səbbah Nizari-İsmaili dövlətini qurduqdan sonra, Şam ismaililəri də Ələmuta gəlmiş, burada nizari-ismaili təbliğatının əsaslarını öyrəndikdən sonra, öz vətənlərinə qayıdaraq, oxşar təşkilatlanma üsullarını tətbiq etmişlər.

Şam nizariliyi tarixində mühüm rol oynamış şəxs Sinan Raşidüddin (520/-1126-588-89/1192-93) olmuşdur. O, Ələmutda nizari-ismaili təlim-tərbiyəsindən keçdikdən sonra, 558-ci ildə Şama gəlmiş, burada fədai təşkilatını qurmağa müvəffəq olmuşdur (Tamir 1991, IV/12). Sinan da Səbbah kimi bacarıqlı bir sərkərdə olmaqla yanaşı, dövrün dini və dünyəvi elmlərinə bələd bir insan idi.

Sinan öz ətrafında əmrlərinə qeyd-şərtsiz tabe olan fədailəri toplamağı bacarmışdı. Mənbələrdə qeyd olunduğuna görə, Sinan üç dəfə Səlahəddin Əyyubiyə qarşı sui-qəsd təşkil etdirmiş, lakin istəyinə nail ola bilməmişdir. Nəhayət, üçüncü sui-qəsddən sonra Səlahəddin Əyyubi Sinana bir elçi göndərib hədə-qorxu gəlmişdir. Sinan Səlahəddinin elçilərinə belə cavab vermişdir: "Sizin başçınız öz əsgərlərinin zahirinə hökm etdiyi halda, mən öz əsgərlərimin batininə hökm edirəm". Daha sonra öz hündür qalasının başında duran Sinan əlindəki bıçağı qaladan xəndəyə atır və 10 nəfər cavan əsgərini çağırıb, "Kim buna (bıçağa) sahib olmaq istəyirsə, özünü onun ardınca (qaladan xəndəyə) atsın", – deyir. Bunu eşidən əsgərlər özlərini qayadan atıb öldürürlər. Elçilər geri qayıdıb hadisəni Səlahəddinə danışırlar. Sinanın fədailərinin onun əmri ilə hər növ cinayət törədə biləcəyini anlayan Səlahəddin onunla sülh bağlayır (Səfədi 1420/2000, XV/285; Zəhəbi 1407/1987, XXXXI/333).

Mənbələrdə "dağın qoca adamı" (Şeyx əl-cəbəl) adlandırılan Sinan da Həsən Səbbah kimi, ölənə qədər istər müxtəlif təbliğ metodlarından, istərsə də hərbi vasitələrlə nizariliyi yayma və qurduğu kiçik dövləti qorumaq üçün çalışmışdır. O, səlibçilərin də fəaliyyət sahəsi olan Şam bölgəsində qonşu müsəlman dövlətləri və səlibçilərlə lazım gəldikdə hərbi mübarizə aparmış, bəzən öz maraqları naminə onlarla sülh şəraitində yaşamış, beləcə, öz nüfuzunu

qoruyub-saxlaya bilmişdir. Sinanın təşkilatlandırdığı Şam nizariləri monqolların Ələmutu ələ keçirməsinin təsiri ilə zəifləmiş və Məmlük sultanı I Baybarsın 1273-cü ildə Suriya nizarilərinin bütün qalalarını ələ keçirməsindən sonra (Daftari 2017, 460) artıq dövlətləşmə iddiasından əl çəkərək, məhəlli bir azlıq qrup şəklində günümüzə qədər öz mövcudluqlarını qorumağı bacarmışlar.

### c) Avropa mənbələrində həşişilik

Həşişilər, xüsusən də Sinana tabe olan Şam həşişiləri haqqında Orta əsrlərdə yaşamış avropalı müəlliflərin əsərlərində də məlumatlara rast gəlinir. "Həşişi" adı Orta əsr Avropasında o qədər məşhur olmuşdur ki, hətta "suiqəsdci, pul müqabilində insanları qətlə yetirən" mənasında bir çox Avropa dillərində istifadə olunmuşdur. Müasir ingilis dilində bu sözdən əmələ gəlmiş "assassin" kəlməsi qatil, "assassinate" feili isə "məşhur və mühüm bir şəxsi öldürmək, sui-qəsd törətmək" mənasında istifadə olunur.

Qeyd etmək lazımdır ki, avropalı müəlliflərin həşişilər haqqında verdikləri məlumatlar bəzən çox mübaliğəli, bəzənsə həmin dövrdəki müsəlman cəmiyyətində nizari ismaililərinə olan neqativ baxışın təsiri altında formalaşmışdır. 1332-ci ildə Səlib yürüşünə hazırlaşan Fransa kralı VI Filipə (1293-1350) müsəlman Şərqi və orada qarşılaşa biləcəyi təhlükələr haqqında məlumat və məsləhətlər verən alman keşişi və Dominikan rahibi Brokardusun mövqeyində bunu açıqca görmək mümkündür. Müsəlman Şərqinə səyahət edən Brokardus bu səfərinə dair "Müqəddəs torpağın təsviri" (Descriptio Terrae Sanctae) adlı bir kitab yazmışdır (bax: Bartlett, 2013, 61–71). Şərqi yaxşı tanıdığını zənn edən Brokardus[8] Fransa Kralı VI Filipə çıxacağı səfərdə həşişilərə qarşı çox diqqətli olmasının zəruriliyini qeyd edərək belə deyirdi: "Lənətlənməli və uzaq durulmalı olan həşişilərin də adını qeyd edim. Onlar özlərini satırlar, insan qanı üçün təşnədirlər, pul müqabilində günahsız insanları öldürürlər". Brokardus onların öz məqsədlərinə çatmaq üçün müxtəlif xalqların adət-ənənələrini, dillərini, geyim mədəniyyətini təqlid edə bildiklərini qeyd edir. Özünün onları birbaşa görmədiyini, ancaq danışılanlardan və kitablardan məlumatlanaraq, onlar haqqında bilgi verdiyini bildirir. Onun

[8] Shafiq N.Virani Brokardusa aid edilən bu tövsiyələrin böyük ehtimalla Cuillelmus Adaeyə (William Adma) məxsus olduğunu iddia edir (bax. Virani Shafiq N. The Ismailis In The Middle Ages. Oxford: Oxfor university Press, 2007, səh. 39)

həşişilərin təhlükəsindən qorunmaq üçün krala verdiyi məsləhətlərdən biri də haralı olduğu, əsil-nəcabəti tam bəlli olmayan heç bir şəxsi yaşadığı evdə və ya sarayda işə qəbul etməməsidir (Lewis 1967, 1-2).

Qeyd etmək lazımdır ki, həşişilər haqqında avropalı müəlliflərin verdikləri ilkin məlumatlar daha çox onların Suriyadakı fəaliyyəti ilə bağlı idi və "həşişi, həşşaşi", həmçinin onların liderləri üçün istifadə edilən "yaşlı adam, dağın yaşlı adamı (şeyx əl-cəbəl)" terminləri ilə ilkin olaraq yalnız Suriyadakı nizari ismaililər nəzərdə tutulurdu. Sonrakı dövrlərdə İran ərazisində yaşayan nizarilər haqqında da bənzər terminlərdən istifadə olunmuşdur.

Avropalı səyyahlar arasında həşişilərin fəaliyyətini ən mübaliğəli şəkildə təsvir edənlərin başında Marko Polo gəlir. 1273-cü ildə bugünkü İran ərazisindən keçən Polo Ələmut vadisində həşişilərin fəaliyyətini mübaliğəli şəkildə təsvir edərək belə deyir: "Yaşlı adam onların dilində Aloadin (Ələddin) adlanır. O, iki dağ arasındakı vadini hasara aldırıb, orada böyük bir bağ saldırmışdır. İndiyə qədər görülən bağlar içərisində ən böyük və gözəli olan bu bağ hər növ meyvə ağacları ilə doldurulmuşdur. Burada qızılla və nəfis naxışlarla bəzədilmiş xəyal edilə bilən ən zərif çadırlar və saraylar inşa edilmişdir. Həmçinin orada şərab, süd, bal və su ilə dolu arxlar, bütün musiqi alətlərində çalıb-oxuya, rəqs edə bilən xanımlar var idi. Yaşlı adam arzu edirdi ki, onun xalqı bunun həqiqi cənnət olduğuna inansın". M.Poloya görə, bağın girişində möhkəm bir qala mövcud idi və kifayət qədər yaxşı qorunan bu qaladan başqa bağın başqa heç bir girişi yox idi. Həşişilərin lideri (yaşlı adam) öz sarayında ölkənin müxtəlif bölgələrindən gətirilmiş 12-20 yaş arasındakı gəncləri saxlayır, onlara cənnətdən bəhs edirdi. Müsəlmanlar Məhəmməd peyğəmbərə necə inanırdılarsa, bu gənclər də ona eləcə inanırdılar. O, tapşırıq vermək istədiyi gənclərə xüsusi içki içirdərək yatızdırır və bağa apartdırırdı. Gənclər oyananda bütün nemətləri ilə birlikdə "cənnət bağı"nı görürdülər. Həşişilərin lideri məşhur bir şəxsi öldürtmək istədikdə, bu gənclərdən birini yenidən içki içirdərək yatızdırır və sarayına gətizdirirdi. Gənc oyandıqda, artıq cənnətdə deyil, sarayda olduğunu görürdü. Yaşlı adam gəncdən bundan əvvəl harada olduğunu soruşduqda, o, "cənnət"də olduğunu deyirdi. Yaşlı adam tapşırığını yerinə yetirməklə yenidən cənnətə gedə biləcəyini söyləyir, məşhur bir adamın öldürülməsindən ibarət olan bu tapşırığı yerinə yetirdikdə ölərsə, mələklərini onun yanına göndərib yenidən onu cənnətə apartdıracağını bildirirdi. Bundan əvvəl

"cənnət"i əyani şəkildə müşahidə edən gənc fədai yaşlı adamın yalan danışmadığından əmin olaraq, onun tapşırığını gözünü qırpmadan yerinə yetirirdi (Lewis 1967, 6-8).

Avropada XVII əsrdən etibarən həşişilərlə əlaqəli əfsanədən uzaq akademik tədqiqatlar da aparılmağa başlanıldı. Bu sahədə ilk akademik tədqiqat aparanın fransız Denis Lebey de Batilly olduğu qəbul edilir. Onun xristian mənbələrinə əsaslanaraq həşişiliyin mahiyyəti və tarixi haqqında yazdığı əsər 1603-cü ildə Lion şəhərində nəşr olunmuşdur (Lewis 1967, 9-10). Məhz bu və bunabənzər tədqiqatlarla Avropa elmi ictimaiyyəti, artıq həşişilərlə əlaqəli tarixi həqiqətləri əfsanəvi məlumatlardan ayırmağı bacardılar.

**Nəticə**

İsmaililik daxilindəki bölünmədən sonra Fatimi xilafəti müstəliliyin fikirlərini rəsmi ideologiyasına çevirməklə nizariləri təqib etməyə başlamış, nizarilik Həsən Səbbahın Ələmut və bəzi digər qalaları ələ keçirib öz dövlətini qurması ilə Misirdən bugünkü İran ərazisinə keçmiş və yeni bir struktura bürünmüşdür. Həsən Səbbahın və ondan sonra Ələmutu idarə edən dailərin və nizari imamların, eləcə də Şam bölgəsində Raşidüddin Sinanın fəaliyyəti nəticəsində nizarilik XI-XIII əsrlərdə müsəlman dünyasında ciddi bir ideoloji və hərbi qüvvəyə çevrilmişdir. Elxanilərin 1256-cı ildə Ələmutu ələ keçirmələri və daha sonra məmlüklərin Suriyadakı nizariləri özlərinə tabe etmələri ilə yanaşı, bu cərəyan artıq öz hərbi və ideoloji gücünü itirmiş və ətrafdakılar üçün təhlükəli olmayan məhəlli bir qrupa çevrilmişdir.

Həşişilərin fəaliyyəti ilə əlaqəli məlumat verilən mənbələrdə, xüsusən Orta əsr avropalı müəlliflərin əsərlərində tarixi həqiqətlərlə əfsanəvi məlumatların bir-birinə qarışdığı müşahidə olunur. Həşişilərin liderlərinə mütləq itaətləri və onların əmri ilə öz ölümlərini gözə alaraq, rəqiblərinə qarşı sui-qəsd təşkil etmələri avropalıları həm nizarilərin mütəmadi olaraq həşiş istifadə etdiklərinə, həm də yer üzündə yaradılan cənnət bağları vasitəsilə aldadıldıqlarına dair xəyali mülahizələrə sövq etmişdir. Onlar bu insanların öz liderlərinə şərtsiz itaətlərini və onun üçün gözlərini qırpmadan ölmələrini başa düşməkdə çətinlik çəkirdilər. Fikrimizcə, bu, avropalıların nizari ismaililiyindəki imamət nəzəriyyəsinin mahiyyətini tam şəkildə dərk etməmələrinin nəticəsidir. Nizarilər Ələmutda oturan ilkin liderlərini Allah tərəfindən göndərilən

yanılmaz (məsum) imamın təmsilçisi, daha sonrakıları isə birbaşa imam kimi qəbul edirdilər. Nizariliyin imamət nəzəriyyəsinə görə, imam Allahın varlığının bilinməsi daxil olmaqla, bütün dini biliklərin mənbəyidir. O, Allahdan aldığı ilhamla ilahi bilikləri insanlara çatdırır. İmama itaət birbaşa Allaha itaətdir. Bu baxımdan, hər bir mömin əbədi səadəti qazanmaq istəyirsə, imama mütləq şəkildə itaət etməlidir. Bu inancı qəbul edən bir şəxs, təbii olaraq, imam kimi qəbul etdiyi şəxsin əmrlərini qeyd-şərtsiz yerinə yetirməyə çalışar. Nizari liderlər qorxunun tamamilə insani bir duyğu olduğunun fərqində idilər. Bu məqsədlə Avropa mənbələrinin mübaliğəli şəkildə qeyd etdiyi kimi, həmişə olmasa da, qorxu duyğusunun qalib gələ biləcəyi zamanlarda öz fədailərinə narkotik maddə olan həşişdən də istifadə etdirirdilər.

## ƏDƏBİYYAT

Axundov Mirzə Fətəli. (2005). Kəmalüddövlə məktubları. Əsərləri III cilddə (II cild). Bakı: Şərq-Qərb.

Bartlett, John R. (1 (2013)). "Burchard's Descriptio Terrae Sanctae: The Early Revision". Palestine Exploration Quarterly. 145, (səh. 61–71).

Biəhkamillah Amir. (1938). Risalətü iqai səvaiqil-irğam ("ər-Hidayətül-amiriyyə" ilə birlikdə). thq. Asif ibn Əliəsğər Feyzi. London: Oxford University Press.

Daftary Farhad. (1994). The Assassin Legends: Myths of the Isma'ilis. London.

Daftary Farhat. (2008). Alamut Efsaneleri. trc. Özgür Çelebi. İstanbul: Yurt-kitab yayın.

Daftary Farhad. (2014). İsmaililer: Tarihleri ve öğretileri..trc. Ahmet Fethi. İstanbul: Alfa Basım Yayım Dağıtım.

Hodgson Marshall. (1955). The Order of Assassins: The Struggle of the Early Nizari Isma'ilis Against the Islamic World. Hague: Mouton & Co. Publishers.

Demirkent Işın. (2004). "Mevdud b. Altuntegin". Türkiye Diyanet Vakfı İslam ansiklopedisi. Ankara: Türkiye Diyanet Vakfı, c. 29, (səh. 427- 429).

İbn əl-Cövzi Əbülfərəc Əbdürrəhman ibn Əli. (1412/1992). Əl-Müntəzəm fi tarix əl-ümәm vəl-müluk. thq. M.Əbdülqadir Ata. Beyrut: Dar əl-kütüb əl-ilmiyyə, c. 17.

İbn əl-Əsir, Əli ibn Əbilkərəm Məhəmməd. (1382/1963). Ət-Tarix əl-bahir fid-dövləti-atabəkiyyə. thq. Əbdülqadir Əhməd Tüleymat. Qahirə: Dar əl-kütüb əl-hadisə.

İbn əl-Əsir İzzəddin Əli ibn Məhəmməd. (1386/1966). Əl-Kamil fit-tarix.Beyrut: Darü sadir, c.10.

İbn Kəsir Əbülfida İsmail ibn Şəhabüddin. (1408/1988). Əl-Bidayə vən-nihayə. thq. Əli Şiri. Beyrut: Darü ihya ət-türas əl-ərəbi, c.12.

Lewis Bernard. (1967). The Assassins: A Radical Sect in Islam. New York: Oxford University Press.

Müstövhi Həmdüllah. (hicri-şəmsi 1362). Tarixe-qozide. thq. Ə. Nəvai. Tehran: İntişarate-əmir kəbir.

Nüveyri Şihabüddin Əhməd ibn Əbdülvəhhab. (tarixsiz). Nihayətül-ərəb fi fününil-ədəb. Qahirə, c. 26.

Öz Mustafa. (1997). "Haşişiyye". Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. Ankara: Türkiye Diyanet Vakfı, c. 16, (səh. 418-419).

Öz Mustafa, Eş-Şek'a Mustafa Muhammed. (2001). "İsmailiyye". Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. İstanbul: Türkiye Diyanet Vakfı, c. 23, (səh. 128-133).

Özaydın Abdülkerim. (2005). "Muhammed Tapar". Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. İstanbul: Türkiye Diyanet Vakfı, c. 30, (səh. 579-581).

Özaydın Abdülkerim. (2009). "Sencer". Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. İstanbul: Türkiye Diyanet Vakfı, c. 36, (səh. 507-511).

Səfədi Xəlil ibn İzzəddin. (1420/2000). Əl-Vafi bil-vəfəyat. thq. Ə.Arnaut-T. Mustafa. Beyrut: Daru ihyait-türas, c. 15.

Şəhristani Əbülfəth Məhəmməd ibn Əbdülkərim. (1421/2001). Əl-Miləl vən-nihəl. thq. Ə.Ə.Mühənna, Ə. H.Faur. Beyrut: Darül-mə`rifə, c. 1.

Tamir Arif. (1991). Tarix əl-ismailiyyə. London: Riyaz ər-rəis lil-kütüb vən-nəşr, c. 4.

Virani Shafiq N. (2007). The Ismailis In The Middle Ages. Oxford: Oxfor university Press.

Zəhəbi Şəmsəddin Məhəmməd ibn Əhməd. (1407/1987). Tarixül-islam. thq. Ö. Ə. Tədmüri, Beyrut: Darül-kitabil-ərəbi, c. 41.

Zəhəbi Şəmsəddin Məhəmməd ibn Əhməd. (1413/1993). Siyər əl-ə`lam ən-nübəla. thq. Şüeyb əl-Ərnəut. Beyrut: Müəssəsə ər-risalə, c. 19.

***д.ф. по теологии, доц. Агиль Ширинов***

# ХАШИШИЙСТВО (ХАШШАШИЙСТВО) МЕЖДУ ИСТОРИЕЙ И ЛЕГЕНДОЙ

## РЕЗЮМЕ

После смерти фатимидского халифа аль-Мустансира Биллаха (1036-1094) секта исмаиллитов разделилась на две ветви. Младший сын аль-Мустансира Биллаха аль-Мустали был избран халифом при поддержке своего шурина командира войска Афзал ибн Бадр аль-Джамали. В период нового халифа сторонники имамата старшего сына аль-Мустансира Низара подвергались преследованию. В отличие от мусталийи низарийство (низарийя) превратилось в официальную идеологию государства исмаиллитов (1090-1256), созданного Хасан ас-Саббахом в Аламуте. Хасан ас-Саббах пытался распространить низарийя на мусульманском Востоке. При этом он боролся с противостоящими ему силами с помощью различных идеологических и военных средств, включая заговор.

Это борьба, начавшаяся с захвата Аламута в 1090 году, в дальнейшем благодаря усилиям Рашид ад-Дин Синана (1126-1193) распространилась на территорию Сирии. Таким образом, низариты стали серьезной военной и идеологической силой в мусульманском мире. Противники низаритов, в частности салибы (крестоносцы), действующие на территории Сирии, называли низаритов «гашиши» и «гашаши», так как они употребляли наркотическое вещество гашиш. С одной стороны низариты продвигали идеологию, основанную на важности поклонения их имамам, а с другой, они превратились в устрашающее течение, используя против соперников неприменяемую до того периода тактику заговора. Военная и идеологическая борьба с низаритами стала одной из основных целей для сельджуков. Наконец, захват Аламута монголами, убийство имама низаритов, переход сирийских низаритов под власть мамлюков привели к утрате хашишийством серьезного влияния в мусульманском мире.

Деятельность хашишитов подробно описана в исторических трудах средневековых мусульманских и европейских авторов и записках

путешественников. Несмотря на то, что часть этих трудов отражает исторические реалии, сведения о хашишитах, предоставленные некоторыми авторами, в частности Марко Поло, основываются на легендах. Основная цель статьи заключается в разграничении реальных и вымышленных сведений на основании источников, и выявлении исторических реалий.

***Ключевые слова:*** *гашиши, Хасан ас-Саббах, Аламут, низариты, Рашид ад-Дин Синан, сельджуки.*

***Assoc. Prof. Agil Shirinov***

## ASSASINS: BETWEEN HISTORY AND LEGEND

## ABSTRACT

After the death of the Fatimid Caliph Al-Mustansir Billah (1036-1094), the Ismaili branch of Shia Islam was divided into two parts. Al-Mustanṣir Billah's youngest son Aḥmad al-Mustaʿlī Billah, with the help of his brother-in-law, the vizier Afdal ibn Badr al-Jamali, became a Caliph. During the reign of the new Caliph, the proponents of Mustansir`s older son Nizar`s imamate were subjected to prosecution. Nizariyya, which, unlike Musta`liyya accepted the Imamate of Nizar, became an official ideology of the Ismaili State, (which was) founded in Alamut by Hasan al-Sabbah. Hasan al-Sabbah was attempting to spread Nizari Ismailism in the Muslim East and, by using various ideological and military means including assassination, was struggling against those who posed obstacles in his way. This activity, which began with the capture of Alamut, later on, expanded towards Syria by the efforts of Rasid al-Din Sinan (1126-1193), and thus Nizaris became a military and ideological force in the Islamic World. Nizaris, who, due to their use of narcotics called Hashish were named by their opponents as Hashishis (Assassins), on one hand by propagandizing their ideology based on the

necessity to obey their imams, and on the other hand by using the tactics of assassination against their enemies, which had been unprecedented until that time, became a fearful movement. One of the main targets of the Seljuks was the military and ideological struggle with them. At last, Assassins ceased to be a serious force in the Muslim world after Mongols seized Alamut and killed the Nizari Imam and, later on, the Mamluks took control of Syrian Nizaris.

There is a significant amount of information on the Assassins` activities in the historical sources and travels written by medieval Muslim and European authors. Although some of those works reflected historical facts as they are, others, Marco Polo being in the first place, based their information on legends. The main purpose of the article is, by being based on the real sources, to determine the right and legendary pieces of information on the Assassins and thus to reveal the historical facts on this issue.

***Keywords:*** *Assassins, Hasan Sabbah, Alamut, Nizaris, Rashid al-Din Sinan, Saljuks.*

***Çapa tövsiyə etdi: f.f.d. M.M.Mürsəlov***